**PAŞA YAQUB**

# TƏBABƏTİN SİRLƏRİ

**Bakı - 2018**

Paşa Yaqub, "**Təbabətin sirləri**",
Bakı, "Zərdabi LTD" MMC, 2018, 40 səh.

*Tanınmış psixoterapevt və elmi-lədun bilicisi Paşa Yaqub bir neçə klinikada çalışır. 33 kitabın (o cümlədən 4 ensiklopediyanın), yüzlərlə məqalənin müəllifidir. Əlinizdəki broşurada müəllif müxtəlif xəstəliklərin elmə məlum olmayan yaranma səbəblərini araşdırır və özünə məxsus müalicə metodunu izah edir.*

*Kitab, həkimlər, psixoloqlar və müxtəlif xəstəliklərdən əziyyət çəkən insanlar üçün nəzərdə tutulub.*

© "Zərdabi LTD" MMC, 2018



## İlk doğulan uşaqlar niyə əsəbi olur?

Psixoloji araşdırmalarımız göstərir ki, son dövrlər gənc ailələrdə doğulan ilk övladlar əsəbi (bəzi hallarda qüsurlu) doğulurlar. Onu da qeyd edim ki, əgər ilk hamiləlik müəyyən səbəblərdən pozulursa (döl yarımçıq düşürsə), ikinci hamiləlik normal keçə və sağlam uşaq doğula bilir. Cəmiyyətdə geniş hal alan və ailələri narahat edən bu halları, onları yaradan səbəbləri araşdırmaq qərarına gəldik.

Psixoloji və elmi-lədun[1] araşdırmalarımız göstərir ki, bu cür əsəbi (və yaxud, qüsurlu) uşaqların doğulmasına səbəb ananın ətraf mühitdən qəbul etdiyi neqativ enerjilərdir. Maraqlıdır ki, bu enerji anaya bir çox hallarda hələ qızlıq dövründən başlayaraq təsir etdiyi də üzə çıxır. Bəzi hallarda isə, analar hamiləlik dövründə neqativ təsirə məruz qalırlar.

Araşdırmalarımız göstərir ki, neqativ təsirə məruz qalmış qızlarda (yaxud analarda) aşağıdakı əlamətlər müşahidə olunur:

- Baş, boyun, çiyin, bel ağrıları (başda keyləşmə də ola bilir);
- Əsəb;
- Ürək döyüntüləri;
- Diksinmə, qorxu;

[1] *Elm zahiri və batini olmaqla, iki qrupa bölünür. Zahiri elmlər məktəbdə müəllimdən və kitabdan öyrənildiyi halda, batini elm əksinə, müəllimdən öyrənilməz. Buna elmi-lədun deyilir.*
*"Ladun" sözü ərəbcə "dərin qat" mənasını verməklə, elmin dərin qatlarına işarədir. Bu, tək zəhmətlə (oxumaqla) əldə edilə bilməyən, həm də qəlbə gələn duyumla (hissiyyatla) qazanılan bilgidir. Vaxtilə peyğəmbərlər və digər Allah dostları bu cür elmə malik olublar və sirlər üzərindən pərdələri məhz bu elmlə qaldırıblar.*

- Qorxulu yuxular görüb, gündüzlər bu yuxuların təsirindən çıxa bilməmək;
- Boğulmalar;
- Yuxuda vəhşi heyvanların (yaxud qorxulu varlıqların) onu təqib etməsi;
- Gecələr tez-tez sidiyə çıxma (bəzi hallarda);
- Menstruasiya dövrünün həddən artıq ağrılı və sancılı keçməsi;
- Qərarsızlıq (bir fikrə gələ bilməmək);
- Hallunasiya (yanından kölgə keçdiyini, boş otaqdan səs gəldiyini hiss edir);
- Həzm sistemi pozğunluqları;
- Həvəssizlik, ümidsizlik, sevgisizlik, inamsızlıq;

və s.

Sadaladığım bu əlamətlərdən bir neçəsi olan qızlar (və yaxud gəlinlər) hmilə qalarkən, onlarda bu əlamətlər daha da artır və bundan çox əziyyət çəkirlər. Nəticədə, ya hamiləlik pozulur, ya da doğulan uşaq əsəbi (bəzi hallarda qüsurlu) olur.

*Oxucuda sual yaranacaq ki, neqativ enerji insana hansı yollarla daxil olur?*

Araşdırmalarımız göstərir ki, bu enerji insana qorxu, stress, bəzi gözlərdən gələn Selen maddəsinin şüaları, eləcə də magik təsirlər vasitəsi ilə daxil olur.

Orqanizmə düşən bu neqativ (qara) enerji kompyuterlərimizə düşən virusa bənzəyir ki, daxil olduğu bədəndə sabitliyi pozur, insanın fəaliyyətini dondurur, əsəb, ürək darıxması, eləcə də yuxarıda sadaladığım əlamətlərin yaranmasına səbəb olur.

Diqqətinizi bir məqama da cəlb edək ki, neqativ enerji qızların (bəzən oğlanların da) qəlbindən inam və məhəbbət hissini (faylını) sildiyindən, onlar bir çox





hallarda ailə qurmaq istəmirlər. Onlarda cinsi istək (həvəs) olmur. Belə gənclər bəzi hallarda ailə qursalar da bunu məhəbbətlə deyil, kiminsə xatirinə (ailənin təzyiqi və s.) reallaşdırırlar. Nəticədə, belə qızlarda ilk hamiləlik çox ağrılı, qorxu, həyəcanla və yuxarıda sadaladığım əlamətlərlə keçir. Ən pisi də odur ki, hamiləlik dövründə bu əlamətlər hamısı bətndəki uşağa keçir. Nəhayət, ailənin ilk övladı əsəbi, (yaxud, qüsurlu) doğulur.

Bu gün cəmiyyətimizdə neqativ enerji həddən artıq çox yayıldığından, bu enerjinin təsirinə məruz qalan qızların (qadınların) da sayı sonsuzdur. Nəticə olaraq, son dövrlər doğulan uşaqların böyük əksəriyyətində aşırı əsəbilik müşahidə edilməkdədir.

Araşdırmalarımız göstərir ki, neqativ enerjini bir çox hallarda insanlar bilməyərəkdən öz-özlərinə yükləyirlər. Belə ki, günümüzdə bir çox insanlar çətinə düşəndə falçı və ekstrasenslərə, cadugərlərə müraciət edirlər. Çıxış yolu üçün onların "məsləhət"lərindən "faydalanırlar". İnsanlar dərk etmirlər ki, bu kateqoriyadan olan "maq"lar özləri əsəbi, sevgisiz və rəhmsizdirlər. Bu da onların neqativ enerjiyə yüklənmələri ilə əlaqədardır. Onlar yanlarına gələn pasiyentlərə də həmin neqativi yükləyirlər. Falçı və cadugərlərin verdikləri əşyalar evə daim qara enerji ötürərək, auranı pozur. Nəticədə orada yaşayanlarda əsəbilik, qorxu, həyəcan və s. yuxarıda sadaladığım əlamətlər, xəstəliklər müşahidə edilir. Qızlarda (qadınlarda) həssaslıq kişilərdən çox olduğundan, neqativ təsirə daha çox məruz qalırlar və ailəyə daxil olmuş enerjini ilk növbədə onlar qəbul edirlər (ağırlıq qızların üzərinə düşür). Vaxtında tədbir görülmədikdə, gələcəkdə belə qızlardan əsəbi uşaqların doğulmasına gətirib çıxarır.

Tibb və psixologiya elmləri bu enerjinin yaratdığı fəsadları (yuxarıda sadaladığım əlamətləri) aradan qaldırmaqda aciz qalsa da, “Efir” enerjisindən istifadə etməklə, cəmi üç seansa neqativ enerjidən və onun yaratdığı xəstəliklərdən xilas olmaq mümkündür. Yuxarıda sadaladığım əlamətlər uşaq doğulmazdan əvvəl (qızlıq və ya hamiləlik dövründə) aradan qaldırılarsa, tam normal övlad dünyaya gətirmək mümkündür. Əgər gecikdirilibsə, və əsəbi, qüsurlu uşaq doğulubsa, yenə də üç seans etməklə, bu əsəbiliyi (neqativ enerjini) həm uşaqdan, həm də anadan götürmək mümkündür. Bundan sonra həmin anadan sağlam uşaqlar doğulur.

Diqqətinizi bir vacib məqama da yönəldim ki, belə analar uşaq doğulduqdan sonra özlərini çox yüngül və qorxusuz, həyəcansız hiss edirlər. Yuxarıda sadaladığım əlamətlər və ağrılar bir daha onlarda baş vermir. Çünki, onlar bu əlamətləri yaradan səbəbi (neqativ enerjini) uşaqla bərabər özlərindən xaric edirlər. Beləliklə də, anadangəlmə neqattivli (əsəbi, qüsurlu) bir övlada sahib olurlar. Bundan sonra həmin neqativ enerji analara birbaşa deyil, dolayısı ilə (uşaq vasitəsi ilə) təsir etməyə başlayır. Belə ki, əsəbi uşaq anaya rahatlıq vermir, gecə rahat yatmağa, gündüz normal işləməyinə mane olur...

Belə hallarda uşaqlara (və yaxud qadınlara) təyin edilən sakitləşdirici dərmanların tərkibində psixotrop, narkotik maddələr olduğundan, bir çox hallarda onların beynində keyləşməyə və əqli inkişafdan qalmaya səbəb ola bilir.

Təcrübəmiz göstərir ki, bütün bu fəsadlardan xilas olmaq üçün “Efir” enerjisi ilə cəmi üç seans etmək kifayət edir. Kimyəvi dərman vasitəsindən istifadə edilmədiyindən, hamilə qadınlar üçün seansların heç bir ziyanı yoxdur.





Oxucuda sual yaranacaq ki, “Efir” enerjisi nədir və bu enerji hansı xüsusiyyətlərə malikdir? Bunu bilmək üçün aşağıdakı yazımızla tanış olun:

## Mendeleyevin ölümündən sonra “Efir” elementi Dövri Sistemdən niyə çıxarıldı?

Mendeleyev sağ olarkən, onun tətərtib etdiyi Elementlərin Dövri Sistemi Cədvəlinin orjinalında “Efir” adlı element mövcud idi. 1906 ci ildə nəşr olunan “Kimyanın əsasları” kitabına (8-ci nəşr) Mendeleyevin əsl cədvəli salınmışdır ***(bax: aşağıdakı cədvələ:)***. kimyəvi işarəsi “X” olan bu elementi Mendeleyev öz cəvəlində “Nyutoniy” adlandırmışdı. Cədvəlin yuxarı sol küncündə yerləşən bu maddə «Dünya efiri» idi. Cəvəldə “Efir”, “Hidrogen”dən əvvəl yazılmışdı, sıfır qrupuna, sıfır sırasına daxil edilmiş yeganə element idi. Atom kütləsi 0,4 olan bu element yer üzərində hər yerdə mövcuddur. Bu maddə əsl enerji daşıyıcısıdır.

“Efir”in hissələri atomları, molekulları formalaşdırır, amma, kimyəvi reaksiyalarda iştirak etmir. Efir - maddənin bir hissəsidir (belə deyək ki, ruhudur, enerjisidir).

Mendeleyevin vəfatindan (1907) sonra bəşəriyyətin tərəqqisini istəməyən qüvvələr cədvəl üzərində dəyişiklik edib, “Efir” elementini oradan xaric etdilər və 0 qrupunu ləgv etdilər. Beləliklə də, bir çox sirləri qizlətmiş oldular. Ona görə də müasir cədvəldə “Efir” görsənmir. Çünkü 0 qrupu mövcud deyil. Bu saxtakarlıq kimya, fizika, biologiya elmlərinin gələcək inkişafına zərbə vurmaqla, sivilizasiyanın tərəqqisini dayandırdı. Hazırda

məktəblərdə və Ali təhsil müəssisələrində Mendeleyev cədvəli tamamlanmamış, yarımçıq tədris olunur ki, bu da açıq saxtakarlıqdan başqa bir şey deyildir.

| | г р у п п ы э л е м е н т о в | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ряды | 0 | I | II | III | IV | V | VI | VII | VIII | | |
| 0 | Ньютоний | | | | | | | | | | |
| 1 | Короний | Водород H 1,008 | — | — | — | — | — | — | | | |
| 2 | Гелий He 4,0 | Литий Li 7,03 | Бериллий Be 9,1 | Бор B 11,0 | Углерод C 12,0 | Азот N 14,01 | Кислород O 16,00 | Фтор F 19,0 | | | |
| 3 | Неон Ne 19,9 | Натрий Na 23,05 | Магний Mg 24,36 | Алюминий Al 27,1 | Кремний Si 28,2 | Фосфор P 31,0 | Сера S 32,06 | Хлор Cl 35,45 | | | |
| 4 | Аргон Ar 38 | Калий K 39,15 | Кальций Ca 40,1 | Скандий Sc 44,1 | Титан Ti 48,1 | Ванадий V 51,2 | Хром Cr 52,1 | Марганец Mn 55,1 | Железо Fe 55,9 | Кобальт Co 59 | Никель Ni 59 |
| 5 | | Медь Cu 63,6 | Цинк Zn 65,4 | Галлий Ga 70,0 | Германий Ge 72,5 | Мышьяк As 75 | Селен Se 79,2 | Бром Br 79,95 | | | |
| 6 | Криптон Kr 81,8 | Рубидий Rb 85,5 | Стронций Sr 87,6 | Иттрий Y 89,0 | Цирконий Zr 90,6 | Ниобий Nb 94,0 | Молибден Mo 96,0 | — | Рутений Ru 101,7 | Родий Rh 103,0 | Палладий Pd 106,5 |
| 7 | | Серебро Ag 107,93 | Кадмий Cd 112,4 | Индий In 115,0 | Олово Sn 119,0 | Сурьма Sb 120,2 | Теллур Te 127 | Иод I 127 | | | |
| 8 | Ксенон Xe 128 | Цезий Cs 132,9 | Барий Ba 137,4 | Лантан La 138,9 | Церий Ce 140,2 | — | — | — | — | — | — |
| 9 | | — | — | — | — | — | — | — | | | |
| 10 | — | — | — | Иттербий Yb 173 | — | Тантал Ta 183 | Вольфрам W 184 | — | Осмий Os 191 | Иридий Ir 193 | Платина Pt 194,8 |
| 11 | | | | | | | | | | | |
| 12 | — | — | Радий Ra 225 | — | Торий Th 232,5 | — | Уран U 238,5 | | | | |

**1906 ci ildə nəşr olunan “Kimyanın əsasları” kitabının 8-ci nəşrində Mendeleyev cədvəli**

“Efir” elementinin sirlərindən bəşəriyyətin xeyrinə istifadə edən alimlər müəmmalı şəkildə öldürülürlər.

Tarixə nəzər yetirək: bir çox alimlər bu sonsuz enerji maddəsinin cəmiyyətin xeyrinə tətbiq olunma variantlarını işləyiblər. Amma, hamısının sonu faciə ilə bitib. Bəşəriyyətin tərəqqisini istəməyən qüvvələr buna imkan verməyiblər. Məsələn, böyük alim **Nikola Tesla**





(1856 – 1943 ) “Efir”dən energi alınmasının mümkünlüyünü sübut etdi. Alim bu elementin sirrini bilməklə, daimi işləyən mühərrik yaratdı. Daha sonra, enerjinin naqilsiz paylanmasını kəşf etdi. Bu da onun karyerasının sonunu gətirdi. Qoca vaxtı hoteldə qaldığı otaqda müəmmalı şəraitdə ölü tapılır. Dərhal onun otağından bütün əlyazmalarını, elmi işlərini kəşfiyyat xidməti (FBR) yoxa çıxardır.

Eynşteyn “Ümumi nisbilik nəzəriyyəsi”ni açıqlamaq üçün fiziki məkanı «Efir» adlandırmağı təklif etsə də, böyük güclərin (mafiyaların) nəzarətində olan və “elmlər akademiyası” adlanan qurum buna imkan vermədi. Ümumi nisbilik nəzəriyyəsinə əsasən, deyə bilərik ki, məkan - «Efir» olmadan ağlasığmazdır.

Elimlər akademiyası hələ də öz mövqeyində möhkəm dayanıb və dayanmaqda davam edir: “Efir” elementi ilə bağlı heç bir tədqiqat işi, elmlər akademiyaları tərəfindən qəbul edilmir. Çünki, bu mövzuya hansısa qüvvələr tərəfindən qadağa qoyulub. Misal üçün “daimi mühərriklərin” ixtirası baxılmır.

Amma, hal hazırda bu istiqamət aktiv müzakirə olunur. Bu mühərrik alimlər tərəfindən bir cox ölkələrdə yenidən işlənib. Hətta, Russiyada. İAE bazasında və digər bazalarda keçirilən ekspermentlərdə “Efir” elementindən istifadə olunub.

Yaponiyada yanacaqsız işləyən avtomobillərin istehsalına başlanacağı haqda məlumat verilib. 2008-ci ildə yanacaqsız çalışan və enerjisini “Efir”dən alan motossikl nümayiş etdirilib. Maraqlıdır ki, yenə də hansısa

qüvvələr bu texnoloqiyaların həyata keçməsinə imkan vermədilər...

Müasir təssəvürdə "Efir" yuksək sıxlığa malik olan qaza bənzəyir. Elementin araşdırmasına Rusiya alimi Vladimir Ocukovskiy də oz əməyini sərf edib. O, Texnika elimləri doktoru, Siyalkovski adana kosmik akademiyasinin üzvü, Rusiya akademiyasının fəxri üzvüdir.

Efir küləyi Qütb ulduzunun, Əjdaha bürcünün yaxınliqinda yerləşir. Onun sürəti 400 km/saniyədə yer kürəsinə yaxınlaşdqca küləyin sürəti 30 km/saniyəyə enir və daha az ola bilər; bu dəniz səviyəsindən asılıdır. Şimalda "Efir" boyuk sıxlığa malik olur. Cənubda isə, sıxlıq azalır.

"Efir" qaza bənzədiyinə görə üç cür hərəkətə malikdir: xaotik, qəbul edilən (külək və səs), fırlanan (qasırğa, külək, burulğan).

Başlayaq küləkdən. Külək burulğanı "Efir"in yeqanə yaranmasıdır. Çox uzun ömürlü olur. Bu sahəni araşdıran alimlər belə qənaətə gəlirlər ki, Kainatın bütün obyektlərinin (qallaktikaların, ulduzların, Günəş və planetlərin, atomlar və elementar hissəciklərin) enerqetik əsasını burulğan "Efir" təşkil edir. Bu element maddəyə və enerjiyə çevrilir. Ehtimal olunur ki Yer kürəsinin mərkəzində burulğan külək yerləşir. O, enerji idxal edir. Yerin daimi fırlanması da məhz bu enerjinin nəticəsində baş verir.

Əgər küləyin növünə nəzərən "Efir"in yerdəyişməsini götürsək, bu, Fen Şuy təliminə görə "Si" deməkdir ki, bu da külək və su ilə yerini dəyişir. Çin heroqlifi "Si" - buxar, hava və ya nəfəs mənasını verir. "Si" ağac, kərpic və ya beton kimi müxtəlif keçiricilik qabiliyyətinə malik olan mühitlərdən maneəsiz keçə bilir.





"Si" insan bədənində meridianlar üzrə axır. İndi isə, bizim üçün ən vacib olan "Efir"in yerdəyişməsinə səsin növünə nəzərən baxaq. Çox qədimdən məlum idi ki, dünya rəqəmlər və səslər vasitəsilə yaradılıb. Burada Q. Qalileyin "Allah Kainatı riyazi dillə yaratmışdır" fikri yerinə düşür.

Platon müəyyən etmişdir ki, ən mükəmməl həndəsi fiqurlarda musiqi kürəsi var. Bu kəşf eləcə Platon hissəcikləri adlandırıldı.

Müxtəlif diatonik musiqi tezliklərində su damlası daxilində hissələri birləşdirən ellipistik əyri xəttlərlə əhatə olunan Platon hissəcikləri yaranır.

Bu, həmin elmentlərin xassələri haqqında olan təsəvvürlərlə tam uzlaşır.

Beləliklə, kainatın kristallik strukturunun yaranmasına səbəb səsdir. Daha doğrusu, naqillərdə yayılan bütün növ dalğavarı hərəkət kimi, efirdəki dalğaların interferensiyasıdır. Təsadüfi deyildir ki, qədim dövrdə hesab edirdilər ki, dünya səslər və rəqəmlərin köməyi ilə yaradılmışdır. Yəqin elə buna görədir ki, İlahi kəlamlar (Quran, əzan və s) avazla oxunduqda daha çox təsir gücünə malik olur. Səmavi kitablarda xəbər verildiyi kimi, Kainat Yaradanın "Ol!" kəlməsi ilə yaranmışdır.

İndi isə, rəqəmlər haqqında. Belə strukturları yalnız hormonik dalğalar birləşməsi yarada bilərlər. Harmoniyanın əsası isə, fibonaççi ədədlər nisbəti adlanan rəqəmlərdən yaranır. Belə ki, hər yeni sayı əvvəlki iki məbləği özündə cəm edir: 1, 1, 2, 3, 5, 8, 13, 21, 34, 55, 89...

Əgər biz hər qonşu cüt rəqəmləri analiz etsək görərik ki, bu Pifaqor tərəfindən kəşf edilmiş diatonik musiqi

nisbətidir: 1/1, 1/2, 3/2, 5/3, 8/5, 13/8, 21... Bu isə, öz növbəsində musiqi intervalları olub, oktava, kvinte, kvarte, kiçik və böyük sekste, kiçik və böyük terçiyə və s. uyğundur.

Bütün bunlar onu göstərir ki, Mendeleyevin ölümündən sonra Dövri Sistemdən çıxarılan (gizlədilən) "Efir" elementi rəqəmlərdə və musiqinin tərkibində də vardır. Buna görə də qəlbə yatan musiqi insana enerji (ruh) verir; yorğunluğu aradan qaldırır. Təcrübələr göstərir ki, bir çox xəstəliklərin müalicəsi musiqi ilə paralel aparıldıqda, daha effektli olur. Yuxarıda qeyd etdiyimiz kimi, İlahi kitablar da musiqiylə oxunduqda daha çox təsirə malik olur. Hələ ta qədimdən insanlar dini rituallarda (sufilərin zikr mərasimlərində, Fen Şuy təlimində və s.) musiqiyə və sözlərin (səslərin) sayına xüsusi önəm vermişdilər. Bu gün də bu ənənə qalmaqdadır. Bütün bunlar "Efir" elementinin insana təsirinə, enerji verməsinə səbəb olan amillərdir.

## "Efir"dən alınan enerji bütün xəstəliklərin dərmanıdır

Təcrübəmiz göstərir ki, bu sirləri dərindən bilməklə, insan "Efir" elementini enerjiyə çevirib, bundan xəstəliklərin müalicəsində istifadə edə bilər. Necə ki, Nikola Tesla bu sirləri kəşf etməklə, daimi işləyən mühəriki, enerjinin naqilsiz ötürülməsini ixtira etmişdi (təəssüf ki, bütün bunlar bəşəriyyətdən gizlədildi). Qeyd edək ki, bizim yaratdığımız elmi-lədun (elmin dərin qatı) müalicə metodu da məhz bu sirlərə söykənir. İnsan





bədənində toplanan və orqanların funksiyasını pozan, ağrılara, xəstəliklərə səbəb olan neqativ enerjini bədəndən məhz "Efir"in enerjisi ilə təmizləmək mümkündür. Bu sirlər tibb elminə məlum olmadığından, bir çox xəstəlikləri müalicəsiz hesab edirlər. Hansı ki, belə "müalicəsiz" xəstəliklərin çoxunu cəmi 21 (iyirimi bir) günə müalicə edib, sağaltmaq mümkündür. Gələcəkdə insan oğlu dərk edəcək ki, "Efir"dən alınan enerji bütün xəstəliklərin dərmanıdır...

*Sual yaranır: bəs "Efir" elementi və onun faydaları niyə belə ciddi-cəhdlə bəşəriyyətdən gizlədilir?*

Məncə səbəb odur ki, bu element Kainatın özəyini, enerjisini, ruhunu təşkil edir. "Efir"in varlığını, onun sirrini bilmədən, Kaninatın, yaradılışın dərki mümkünsüzdür. Bu gün bəşəriyyəti istismar edən böyük güclərə insanların dərrakəli olması maraqlı deyil (ağıllı, dərrakəli insanı istismar etmək çətindir). Həmçinin, daimi işləyən (Yerin, göyün, planetlərin hərəkəti kimi) mühərriklərin həyata tətbiq edilməsi enerji resurlarına nəzarət edən mafiyaların marağına uyğun deyildir. Bu səbəbdən də elmin inkişafına mane olmaqla, bu gün dünyada yarımçıq – inamsız, imansız dərrakəsiz bir kütlə formalaşdırıblar (bu səbəbdən hələ də meymundan yarandığına inanan düşüklər var).

Vacib bir məqamı da qeyd edim ki, Elementlərin Dövri Sistemindən "Efir"in çıxarılması kimya, fizika və biologiya elmlərinin inkişafının qarşısını aldığı kimi, eləcə də tibb elminə zərbə vurdu. Tibb elmi, adını çəkdiyim elmlərə bağlı olduğundan, onlar kimi, yarımçıq qaldı.

Onu da qeyd edim ki, psixoloq və elmi-lədun bilicisi olaraq yaratdığım müalicə metodu məhz "Efir"

elementinin sirlərinə əsaslanır. Nəzərinizə çatdırım ki, bu element istənilən adamda vardır. Sadəcə, bunu enerjiyə çevirmək və müalicəyə tətbiq etmək elmi-lədun (elmin alt qatı) yolu ilə mümkündür ki, mən buna uzun araşdırmalardan, tədqiqatlardan sonra nail oldum. Elə bu səbəbdəndir ki, tibb elminin müalicəsiz hesab etdiyi bir çox xəstəlikləri (eləcə də şişləri) bu metodla asanlıqla müalicə edə bilirəm. Bəlkə elə buna görədir ki, sağaltdığım xəstələr təkrar ultrasəs müayinəsindən keçəndə həkimlər aparatın xarab olduğunu deyirlər. Aşağıdakı yazıda deyildiyi kimi:

## UZİ xarab olub, yoxsa səhiyyə sistemi?

Qazaxdan Elnur Quliyev adlı oxucumuz yazır:

-Hörmətli oxucular, başıma gələn bir hadisəni sizlərlə bölüşmək istərdim. Həyat yoldaşımın bogazında qalxanvari vəzin şişməsi - yəni zob xəstəliyi vardı. Bu xəstəlik ona cox əziyyət verirdi. Məsələn, ürək döyüntüsü, əldə uyuşma, saç tökülməsi. əsəb və s.

Günlərin bir günü yoldaşımı Qazax rayon xəstəxanasına götürdüm. Analizlər, UZİ aparatı... Cavab heç də ürək açan olmadı. Zob həkiminin yanına gedib, bu xəstəliyin müalicə olunması üçün müraciət etdik. Həkim bu xəstəliyin gecikməsini, üstəlik, müalicənin xeyri olmadıgını qeyd edərək, mütləq cərrahiyyə əməlyatının vacibliyini dedi. Sözün açığı rayon həkimlərinə güvənməyib, Bakıya üz tutdum. Bakıda təkrar analiz, UZİ... cavab eyni - rayondakı kimi çıxdı. Bakıda da eyni sözü dedilər: bu xəstəlik gecikmədən cərrahiyyə əməliyyatı





olunmalıdır. Gecikərsə ağır xəstəliklə nəticələnə bilər. Bir az müalicə edib, cərrahiyyə əməliyyatı olmaq üçün hazırlaşmağımızı təklif etdilər. Nə isə, təklifi qəbul edib, Bakıdan dərmanları alıb, rayona döndüm. Rayonda 10 gün müalicə olunduqdan sonra, həkimin 10 gündən sonra təkrar UZİ aparatından kecmək tapşırığına əməl edib, müayinədən keçdim və analizlər verdim. Heç bir xeyri olmamışdı...

Yenidən Qazax rayonunda calışan həkimin yanına getdim və analiz kagızlarını, üstəlik Bakıda yazılan dava-dərmanların reseptini göstərdim. Həkim kagıza baxaraq cox əsəbləşdi: bu nədi, bunu kim yazıb - dedi? Dedim Bakıda həkim yazıb, noolub, nə məsələdi? Dedi hansı agılla, hansı savadla bu dərmanları yazıb? Bu dərmanların xəstə ücün heç bir aidiyyəti yoxdur; bu dərmanlar sadəcə müqaviməti gücləndirmək ücündür.

Dedi əgər istəyirsən müalicə yazım, 2-3 ay bu müalicəni edin. 2-3 aydan sonra cərrahiyyə əməliyyatı olunmalıdı, başqa çıxış yolu yoxdur. Nə isə, bir vərəq dava-dərman yazıb, bizi ugurladı: gedin, 3 aydan sonra gələrsiz deyə.

Xəstəxananı tərk edib, başqa bir zob həkiminin yanına üz tutdum. Eynisini o biri həkim də dedi və o da başqa bir resept yazdı: gedin bunları alın, cərrahiyyəyə hazırlaşın dedi.

Gəldim aptekə, satıcıya yaxınlaşıb reseptin ikisini də uzadaraq: qardaş, səndən çox xahiş edirəm bu reseptin hansını məsləhət görürsən? - deyə soruşdum. Cavab verdi ki, ikinci getdiyin həkim illərin həkimi oldugu üçün, onun reseptini al. Ən azından illərin həkimidi -

dedi. Nə isə, dəva- dərmanı alıb, evə döndüm. Bir necə vaxt aradan keçdi, təkrar analiz, UZİ aparatı... heç bir xeyri olmadıgını gördüm. Cərrahiyyə əməlyatı üćün hazırlaşdıq.

Bu arada moderator.az saytında bir xəbərə rast gəldim. Dava-dərmansız elmi-lədun metodu ilə insanların xəstəliklərdən müalicə olunmasının mümkünlüyü barədə bir xəbəri oxudum. Bu həkimin adı **Paşa Yaqub** idi. Etməyib tənbəllik Paşa Yaqubu tapdım. Onunla tanış olub, başıma gələni ona danışdım. Cavab verdi ki, Elnur, yoldaşınla gəl yanıma, narahat olma, mən sagaldacam. Sözün acıqı ilk başda inanmadım. İnanmamagımın səbəbi həkimlərin cərrahiyyə əməlyatı barədə qəti qərar verməsi idi. Bu qərar gözmün önünü kəsirdi. “Yaxşı, Paşa doktor, gələcəm” dedim.

Bu arada Bakıda yaşayan bir qohmum depresiyya deyilən bir xəstəlikdən çox əziyyət cəkirdi, hər gün səhərdən axşama səbəbsiz yerə oturub ağlayırdı. İlk öncə bu yaxın qohmumu Paşa doktorun yanına getməsini istədim. Fikirləşdim ki, bunu sağaltsa, deməli düz deyir, yoldaşımı da sağaldar. Həmin qohumum da mənə güvənərək, Paşa Yaquba üz tutdu. Aradan iki həftə kecmiş qohumumun yaxşı olması xəbərini eşitdim. Paşa Yaquba daha da inamım artdı. Etməyib təmbəllik 470 km yolu qət edərək, Bakıya - Paşa Yaqubun yanına getdim. Sağ olsun, məni gözəl bir şəkildə qəbul etdi. İlk senansı elə həmin gün etdi. Bizi yola salarkən daha iki dəfə gəlməyimizi söylədi. “Baş üstə” deyərək, xəstəxanadan uzaqlaşdıq. Onu da nəzərnizə catdırım ki, ilk senansdan sonra yoldaşım özündə biraz yüngülkük hiss





elədi. Təkrar rayona qayıdıb, daha iki dəfə Paşa doktorun qəbuluna gəldik. Üçüncü senansdan sonra: Elnur, get, narahat olma, 1 aydan sonra apar harada istəyirsən aparatdan kecir, yoldaşın yaxşı olacaq dedi.

Əziz dostlar, aradan bir ay kecdi, yenidən üz tutdum rayonumuzda (Qazaxda) olan klinikalardan birinə, təbii ki, UZİ aparatından kecməyə. Aparatın cavabı cıxdı. Aparata salan həkim (...) xanım təəccüblə yoldaşımın üzünə baxaraq: sən həftənin ikinci, yaxud, ücüncü günü Ağstafaya gəl, səni orada bir də aparata salacam dedi.

Biz də “baş üstə” deyərək, xəstəxananın ücüncü mərtəbəsinə - ilk başda cərrahiyyə əməliyyatı olunmalısan deyən həkimin yanına qalxdlq. Əvvəlki aparat kagızını, bir də yeni çıxan UZİ kagızını həkimin qarşısına qoyaraq, həkimdən əvvəlki ilə indiki fərqi öyrənməyə çalışdıq. Həkim üzümüzə baxaraq: bu ola bilməz, bu mümkünsüzdü, deyərək, aparatın xarab olduğunu, cavabı doğru cıxarmadıgını söyıədi. Dedim necə bəyəm, bu aparat hər gün neçə insanı müayinədən keçirir. Bu aparat saxtadırsa nədən onda millətin cibinə girib, yalandan aparatdan kecirirsiz? Cavab əvəzinə soruşdu ki, sən bu xəstəni harada müalicə etdirmisən? Dedim heç bir dəva dərman olmadan, elmi-lədun metdu ilə müalicə olunub.

Üzümə baxıb gülümsəyərək: bu mümkünsüzdür, biz həftədə, 10 gündə bir alimlərlə yıgışıb müşavirə keciririk, əgər bu xəstəliyin müalicəsi olsa biz də bilərik dedi. Dedim bəs biz kimə inanaq neyləyək? Cavab verdi ki, siz gedin yenidən Ağstafada UZİ-dən kecin. “Yaxşı, təkrar kecib gələrik” dedim.


LABMED

| | | | |
|---|---|---|---|
| Adı Soyadı | Quliyeva Esmira Telman | Sifariş verilib | 07.05.2017 11:08 |
| Doğum tarixi | 23.02.1984 0:00:00 | Qəbul olunub | 07.05.2017 12:56 |
| Cinsi | qadın | Nəticə təsdiqlənib | 07.05.2017 13:05 |
| Həkimi | Axundova Turan | Çap olundu | 07.05.2017 13:05 |

*Qalxanvari vəz*

(sağ pay) ölçüləri: uzunluğu 68,0 mm (N 45-50 mm),
eni: 26,0 mm (N 13-18 mm),
qalınlığı 22,0 mm-dir (N 16-18mm),
həcmi: 19,4 ml

(sol pay) ölçüləri: uzunluğu 46,0 mm (N 45-50 mm),
eni: 13,0 mm (N 13-18 mm),
qalınlığı 13,0 mm-dir (N 16-18 mm),
həcmi: 3,8 ml
*boyun hissəsinin qalınlığı* 4,2 mm-dir (N 4-6mm),

*Vəzin ümumi həcmi*: 24,0 ml- artıb ( norma qadınlarda 4-19 ml).
*Vəzin forması*: asimmetrik-sağ pay sol paydan böyük (sağ payda iri düyünün hesabına)- sağ payın aşağı yarısında həmcins, düzgün aydın konturları olan doppler zamanı peri və intranodulyar qan təczihatı olan iri düyün izlənilir (36,0x26,0x17,0 mm), bu düyünə sıx daha bir ədəd (19,0x9,0 mm)- daxilində 9,0x6,0 mm ölçülü kistası olan- düyün izlənilir. Sağ payın orta hissəsində kista izlənilir 6,0x9,0 mm.


LABMED

| | | | |
|---|---|---|---|
| Adı Soyadı | Quliyeva Esmira Telman | Sifariş verilib | 05.01.2018 16:33 |
| Doğum tarixi | 23.02.1984 0:00:00 | Qəbul olunub | 05.01.2018 17:33 |
| Cinsi | qadın | Nəticə təsdiqlənib | 05.01.2018 17:47 |
| Həkimi | | Çap olundu | 05.01.2018 17:47 |

**ULTRASƏS MÜAYİNƏ PROTOKOLU**

QALXANVARİ VƏZ: qalınlaşıb -sağ payın hesabına
STRUKTURASI: qeyri- homogen
ÖLÇÜLƏRİ:
**Sağ pay**: 1.86x2.87x4.21sm ( N-1,8 x 1,8 x 4,00 sm) həcm V = 11.75 sm strukturunda 1.59x2.25 sm ölçüdə hipoexogen halosu olan hamar konturlu zəif periferiferik və daxili vaskluzasiyası olan hiperexogen strukturlu daxilində kistik kompanentlər olan düyün, 0,85x0.63 sm ölçüdə maye strukturlu arakəsmə ilə deformasiya olunmuş daxilində divar yani komponent olan kolloid kista aşkar olunur
**Boğaz hissə** 0.45 sm (N -0,5 sm)
**Sol pay** :1.68x1.73x3.71 sm ( N-1,8 x 1,8 x 4,00 sm) həcm V = 5.63 sm strukturunda 0.59x0.72 sm ölçüdə izoexogen strukturlu düyün aşkar olunur
Üm. həcm V = 17.38 sm ( N -4,5 -18,0 sm qadınlarda)
**Boyun limfa vəzləri**: böyüməyib
Nəticə: Qalxanvari vəzin strukturunda diffuz dəyişikliklər, düyünlərin aşkar olunması ilə.
Tel: 050222-94-04





Elə də etdim. Təkrar Ağstafada UZİ aparatından keçdik. Aparata salan həkim (...) xanım Qazaxda çıxan aparat kagızını cıraraq: ikisi də eynidi, heç bir fərq yoxdur dedi.

Biz yenidən Qazağa həmin aparat kagızına inanmayan (...) həkimin yanına gəldik. Həkim yenidən aparat kagızlarını gözdən kecirərək: “bəli, xəstəlik cərrahiyyəlik deyil, əvvəlkindən fərqli olaraq yarıdan aşagıdır” dedi. Yəni, 50 %-dən az qalıb. Dedi istəyirsən müalicə yazım, o da çıxıb gedəcək. Mən ona gülümsəyərək, çox sağ olun, bizim öz həkimimiz var; hansı ki, dəva dərmansız müalicə edir, ehtiyac yoxdur - deyib, xəstəxanadan ayrıldıq.

Təbii ki, sevincimizin həddi hüdüdu olmadı. Mən burdan ilk başda Allahıma, daha sonra Paşa Yaqubu bizim qarşımıza çıxaran moderator.az saytına öz təşəkkürümü bildirirəm. Paşa doktora təşəkkürüm ayrıcadır. Çünki, o, bizim tükənmiş ümidlərimizi doğrultdu; hansı ki həkimlərin verdiyi “bu xəstəlik cərrahiyyəlikdi, başqa yolu yoxdur”, qərarı ümüdlərimizi kəsmişdi.

Mən bir daha Paşa həkimə sonsuz təşəkkür edirəm inanıramki yerdə qalan 50 %-də digər senanslarında birdəfəlik yox edəcək.

Söz ardı: mənə elə gəlir ki, xəstəxanadakı UZİ xarab olmayıb, ümumilikdə səhiyyə sistemi xarab olub.

**Elnur Quliyev – Qazax rayonu, Daşsalahlı kəndi.**
**moderator.az saytı**

*Qeyd: müəyyən səbəblərdən həkimlərin adlarını nöqtəlrlə əvəz etdik.*

## İntiharların sirləri elmin alt qatında gizlənir

Son dövrlər intiharlar sürətlə artmaqdadır. Azərbaycan kimi kiçik bir ölkədə gün ərzində bir neçə intihar hadisəsi baş verməsi, problemin ciddiliyindən xəbər verir. İntihar edənlərin sosial tərkibinə nəzər saldıqda, onların maddi cəhətdən başqalarından heç də aşağı səviyyədə yaşamadığını (bəlkədə çoxundan üstün olduğunu) görmək olur. Odur ki, bir psixoloq və elmi-lədun bilicisi olaraq, intiharların bu qədər artmasının sirlərini araşdırmaq qərarına gəldik.

Fizikada iki cür enerji növü var: sabit və dəyişən. Müqayisə üçün deyim ki, televizorun ekraranında 2-3 min volt sabit cərəyan var. Lakin bu cərəyan insanı öldürmür və faydalıdır: bizə görüntü və informasiya ötürür. Televizorun giriş hissəsində isə, cəmi 220 volt cərəyan olmasına baxmayaraq, bu cərəyan öldürücüdür. Çünki, bu cərəyanın növü DƏYİŞƏN cərəyandır.

İnsan da enerji (ruh) daşıyıcısıdır. Ətraf mühitdən insana daim həm sabit, həm də dəyişən (neqativ) enerjilər gəlir. Fərq ondadır ki, bəzən insanın üzərinə güclü neqativ (qara) enerji axını baş verir. Bu qara enerji ruhdakı sabit cərəyanı “dəyişən cərəyan” formasına keçirir. Beləliklə, orqanizmdə sabitlik pozulur. Bundan sonra insanda ilk növbədə həyəcanlanmalar, qorxular, diksinmələr, qarabasmalar... baş verir. Daha sonra insan özünə qapanır; sevgisiz, həvəssiz olur; səbəbsiz ağrıları, qəlbində sıxılmaları olur; yuxuya gedərkən ayağı sanki boşluğa düşür, yaxud yüksəklikdən yıxıldığını hiss





edərək, diksinib, oyanır; bəzi xəstələrdə gecələr tez-tez sidiyə çıxma, yaxud, həzm problemləri olur; bəziləri isə, ətrafından kölgə keçdiyini, boş otaqdan səs gəldiyini, yol gedərkən arxadan izləndiyini hiss edir; səbəbsiz əsəbləşir və səbəbsiz ağlayırlar. Bütün bunlar aradan qaldırılmadıqca, içindəki dəhşətli sıxıntı onu intihara sövq edir...

Xəstənin dini inancı olduqa, bu faktor intiharı bir qədər ləngidir. Çünki, cəhənnəm qorxusu onu bu fikirdən bir qədər daşındırır. Lakin, fikir beyindən çıxmır.

